DOI: 10.36719/AEM/2007-2020/53/171-173

**Samir Zülfiqar oğlu İsgəndərli**
Azərbaycan Turizm və Menecment Universiteti
samir_isgenderli@mail.ru

# AZƏRBAYCAN VƏ MULTİKULTURALİZM

***Açar sözlər:*** *Beynəlxalq münasibətlər, Qloballaşma, Milli-mədəni kimlik*
***Key words:*** *International relations, Globalization, National-cultural identity*
***Ключевые слова****: Международные отношения, Глобализация, Национально-культурная идентичность*

Azərbaycanda tarixən birgə məskunlaşan xalqlar, toplumlar özlərini azad, firavan hiss ediblər. Çünki onlar özlərinə həmişə tolerant münasibət görüb, sıxılmadan yaşayıb, yaşayır və mədəniyyətlərini yaşadırlar. Bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz dini inanclarına uyğun ibadət edir, öz ana dillərində təhsil ala bilir, heç bir yad münasibətlə qarşılaşmadan müxtəlif sahələrdə öz töhfələrini verirlər. Müxtəlif dövrlərdə ölkəmizdə qeyri-müsəlman olan insanlar üçün də ibadət yerləri, sinaqoqlar, kilsələr fəaliyyət göstərib və hazırda da onlar öz fəaliyyətlərini davam etdirirlər.

Heç kimə gizli deyil ki, Azərbaycanda dini konfessiyalar arasındakı münasibətlərin özəyində bir-birinin mənəvi dəyərlərinə və dini inancına dərin hörmət dayanır. Bu da onu deməyə haqq qazandırır ki, Azərbaycan multikulturalizmin əsas mərkəzlərindən biridir. Məzmunca multikulturalizm dəyərləri Azərbaycanda qədim dövrlərdən bəri həmişə mövcud olub. Bəs multikulturalizm nədir?

Sözün semantikası ingilis dilindən hərfi tərcümədən çoxmədəniyyətlilik (multi- çox, culture-mədəniyyət) anlamına gəlir. Çoxmədəniyyətlilik dedikdə isə, ilk növbədə etnik, dini-mədəni, irqi müxtəlifliklər və dəyərlər nəzərdə tutulur. Multikulturalizmin əsasını bir-birinin azadlığına, qanunlara hörmət, tolerantlıq hissi təşkil edir.[3]

Elmi ədəbiyyatda verilən məlumata görə multikulturalizm fenomeni çox da qədim tarixə malik deyil. Multikulturalizm anlayışı 1960-cı illərin axırlarında Kanadada meydana gəlib. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda öz əksini tapmışdır. Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına, inkişafı və harmonizasiyasına yönəldilmiş bir prosesdir. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, əməkdaşlıq və dostluq mümkün deyil.

Mədəni mübadilə və qarşılıqlı zənginləşmə, xalqların sosial-mədəni inkişaf təcrübəsini, dünya mədəniyyətinin tarixi qanunauyğunluqlarını bilmə və yaradıcı şəkildə ondan istifadə etmə qloballaşma şəraitində Azərbaycanın davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafı üçün mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. [1, 320 s]

Multikulturalizm sivilizasiyaların və mədəniyyətlərin dialoqunun zəruri vasitəsidir. Digər mədəniyyətlərin xüsusiyyətlərini, tarixini, mahiyyətini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, mədəniyyətlərin və sivilizasiyaların dialoqonu qurmaq, qarşılıqlı anlaşma mümkün deyil. Avropa və bəzi qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər qarışıq kulturoloji vəzifə olması ilə bağlı olaraq ondan imtina etmişlər. Bəzi xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə inteqrasiya olmağı arzu etmirlər. Bu vəzifənin həlli üçün bütün dünyada "Homo sapiens" tipli insandan "Homo culturalies" tipli insana keçid beynəlxalq proqramının işlənib hazırlanması və tətbiq olunması zəruridir. Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti formalaşdırmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Respublikamızın inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan fobiyaya, anlaşılmazlığa, qarşıdurmaya və qarşıqoymaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Azərbaycan nadir ölkələrdən biridir ki, eyni zamanda, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Azərbaycan dünyəvi müsəlman ölkəsidir. İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, köklərimizə, ənənələrimizə dərin hörmətlə yanaşırıq. Dünyanın ən qədim məscidlərindən biri olan, 743- cü ildə tikilmiş məscid Azərbaycanın Şamaxı bölgəsində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri olan Qafqaz Alban kilsəsi Azərbaycanın digər qədim tarixə malik Şəki şəhərinin yaxınlığında yerləşir.

Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi - bütün bunlar Azərbaycanın mədəni irsinin tərkib hissəsidir.[3]

Azərbaycanda tolerantlıq, multikulturalizm və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim kökləri olan dövlətçilik tarixi və bu adət-ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə baxsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində məskunlaşan digər dini qrupların və etnik xalqların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmiş, multikulturalizm və tolerantlıq ənənələri bərpa edilmişdir. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır.[3]

Azərbaycanın zəngin tolerantlıq ənənələrinə və mədəni-mənəvi irsə malik olması günümüzdə beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir.

Mövcud milli-mədəni fərqlilik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Azərbaycan Respublikasında bu gün həmin linqvistik, mədəni, etnik rəngarəngliyin qorunmasına istiqamətlənən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal uğurların beynəlxalq aləmdə təbliğ olunmasının gücləndirilməsini zəruri edir.

Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və dini, mədəni, linqvistik fərqliliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmiş, 15 may 2014-cü il tarixli sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. [2, 10 s]

Ölkəmizdə mədəniyyətlərarası dialoqun formalaşmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycanın coğrafi baxımdan yerləşdiyi məkanın Şərqlə Qərbin qovşağında yerləşməsidir. Azərbaycan hazırda iki müxtəlif sivilizasiya arasında körpü rolunu oynamaqla, Şərq və Qərb yarımkürələrində öz mövqeyini gücləndirməkdədir. Bu ideya dövlətin xarici siyasətində də kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, İKT, GUAM, Avropa Şurası kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Azərbaycan Avropa İttifaqı tərəfindən həyata keçirilən "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesini uğurla davam etdirir.

Azərbaycanda tolerantlıq mühiti hər zaman ən ali səviyyədə olduğu üçün burada multikulturalizm, dinlər və millətlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın bir çox ölkələrinin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində həyata keçirilmişdir. Bunu Azərbaycanın tolerantlıq mühitinin genişlənməsi, beynəlxalq arenada tanınması və inkişafı ilə əlaqələndirmək mümkündür. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır.[5]

Respublikamızda dini müxtəlifliyin, dini dözümlülüyün, dini və milli tolerantlığın, milli-mənəvi dəyərlərin, multikuturalizmin inkişafında və təbliğ olunmasında Heydər Əliyev Fondunun əvəzolunmaz xidmətləri vardır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində 2015-ci il sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmlş və "Parisin ürəyində Azərbaycan musiqisi" adlı konsert təşkil olunmuşdur.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda baş tutması barədə qərarına əsasən 2016-cı il aprelin 25-27-də Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu keçirilmişdir. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı dini konfesiyaların, QHT-lərin, beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Azərbaycanda baş tutması ölkədə tolerant və multikultural mühitin olmasının göstəricisidir. Multikulturalizmin bu formada geniş tətbiq və təsbit olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir.

Multikulturalizmin müxtəlif modelləri - ABŞ, Avstraliya, İsveç, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir sıra mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi istifadə edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Oreqon və Yuta ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd etdiklərimizə bariz nümunədir.[1, 217s]

Bu gün multikulturalizmin əvzələyicisi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə aparıcı dövlətə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurverici bir haldır. Multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi özünü göstərir.

26 noyabr 2015-ci ildə Bakıda keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasında çıxış edən Prezident İlham Əliyev demişdir: “Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq” [4].

Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan bir həyat tərzinə çevrilmişdir. Müasir dövrdə Azərbaycanda tətbiq olunan multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq olmasının bariz nümunəsidir.

## Ədəbiyyat

1. Hacıyev A; Cəfərov E. Multikulturalizmə giriş. Bakı: Mürtəcim, 2018, 371s.
2. Biblioqrafiya. Azərbaycanda multikulturalizm. Bakı: 2016, 504 s.
3. http://www.ryl.az/files/22.pdf
4. http://multiculturalism.preslib.az/az_a1.html
5. http://multiculturalism.preslib.az/az_others-roep9zOgnx.html

## Azerbaijan and multiculturalism

**Summary**

Azerbaijan has been known as a land where many civilizations have been intertwined, for hundreds of years, an environment of national-cultural diversity, where representatives of different nationalities and confessions live in peace, tranquility and mutual dialogue. Multiculturalism and tolerance have historically been the lifestyle of Azerbaijanis, and today, every citizen of Azerbaijan, regardless of their national identity, religion, or language, has become a daily life. The rich multicultural history of the Azerbaijani people lives not only by the modern tolerant life of our people but also in the literary-artistic, scientific-philosophical, political-legal documents and resources.

## Азербайджан и мультикультурализм

**Резюме**

Азербайджан известен как страна, где многие цивилизации были переплетены, на протяжении сотен лет, в среде национально-культурного разнообразия, где представители разных националь-ностей и конфессий живут в мире, спокойствии и взаимном диалоге. Мультикультурализм и терпимость исторически были стилем жизни азербайджанцев, и сегодня каждый гражданин Азербайджана, независимо от их национальной принадлежности, религии или языка, стал повседневной жизнью. Богатая мультикультурная история азербайджанского народа живет не только в литературно-художественных, научно-философских, политико-правовых документах и ресурсах, но и в современной душевной жизни нашего народа.

**Rəyçi: prof. Ş.Qasımov**

Göndərilib: 16.04.2020 Qəbul edilib: 18.04.2020